# İstedadlı uşaqların psixi inkişafının xüsusiyyətləri

**Zəkiyyə Namiq qızı Hüseynova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*ADPU*
**E-mail:** zekiyye.huseynova@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. Q.V. Rəhimova

**Açar sözlər:** istedad, inkişaf, intellekt, yaradıcılıq, potensial, qabiliyyət, inteqrativ, keyfiyyət, uşaq, kateqoriya, təhsil
**Ключевые слова:** талант, развитие, интеллектуальный, творческий, потенциал, способность, интегрированной, качество, ребенок, категория, образование
**Key words:** talent, development, intelligence, creative, potential, ability, integrated, quality, child, category, education

“Daim yeni olan yeganə yeniliyi” - istedadı qorumaq və hifz etmək XXI əsrdə aktuallıq kəsb etməkdədir. İntellekt və intellektual uşaqlar probleminin aktuallığı ilə bağlı prof. Ə.Əlizadə yazırdı ki, “İki əsrin, XX və XXI yüzilliyin qovşağında qabiliyyət və istedad problemi xüsusilə aktuallaşıb. Bu çoxcəhətli problem hələ lazımi səviyyədə öyrənilməsə də, artıq bir həqiqət şəksizdir: qabiliyyət və istedad şəxsi məsələ deyil, milli sərvətdir. Onu göz bəbəyi kimi qorumaq, xalqa qaytarmaq valideynin də, tərbiyəçinin də, müəllimin də ən şərəfli missiyasıdır” [1].

Təhsil sistemində qarşıda duran başlıca vəzifələrdən biri də istedadlı uşaqların təhsili ilə bağlıdır. İstedadlı uşaqlar bütün dövrlərdə olub və onlara müxtəlif ölçülərlə yanaşılıb. Bu gün istedadlı uşaqlar milli sərvət kimi dərk olunmağa başlanılıb: “İstedadlı uşaq milli sərvətdir. Ölkənin sosial-iqtisadi inkişafının vüsəti bilavasitə istedadlı uşaq problemi ilə bağlıdır. Bu problemin aktuallığı istər inkişaf etmiş, istərsə də inkişaf etməmiş ölkələrdə nəzəri metodoloji ölçülərlə müəyyənləşdirilir” [2, s. 8].

Ə.Ə. Əlizadəyə görə, istedad şəxsiyyətin inteqrativ keyfiyyətidir. Şəxsiyyətin bütün kefiyyətləri məhz bu sahədə görünməz tellərlə bir-biri ilə bağlıdır. İstedad nə vaxtsa üzə çıxır, lakin onun vaxtında müəyyənləşdirilməsi daha səmərəli üsul hesab olunur. Xüsusi ədəbiyyatda bir qayda olaraq istedadlı uşaqların bir neçə kateqoriyasını ayırırlar:

— xüsusi intellekt testlərinə görə yüksək göstəriciləri olan uşaqlar (intellektual istedad);

— yüksək dərəcədə yaradıcı qabiliyyətlərə malik uşaqlar (yaradıcı istedad);

— hər hansı fəaliyyət sahəsində nailiyyət qazanmış uşaqlar (gənc musiqiçilər, rəssamlar, riyaziyyatçılar, şahmatçılar və s.); bu kateqoriya uşaqları adətən talant adlandırırlar;

— məktəbdə yaxşı oxuyan uşaqlar (akademik istedad) [1, s. 7].

Bu kateqoriyalardan hər biri istedada psixi hadisə kimi müəyyən münasibəti inikas etdirir, təhsil təcrübəsində bu kateqoriyalara üstünlük verilməsi müşahidə olunur.

Azərbaycan psixologiyasında istedad problemi qabiliyyətlərin psixologiyası istiqamətində öyrənilib. Prof. Ə.S.Bayramov istedadlı uşaqların aşkarlanmasını aktual psixoloji problem kimi ayırd edib və konseptual ölçülərlə araşdırıb [3].

Ə.S.Bayramov istedadlı uşaqlar problemini Azərbaycanda ilk dəfə yalnız psixoloji problem kimi deyil, sosial və sosial-psixoloji problem kimi araşdıraraq göstərir ki, istedadlı uşaq-

ların seçilməsi, onların təlim və yaradıcılıq istiqamət- lərinin düzgün təşkil edilməsi yalnız ayrı-ayrı məktəblərin deyil, ümumdövlət işidir. Ə.S.Bayramov göstərir ki, bir çox hallarda istedadlı şagird özünün malik olduğu təbii imkanları düzgün dərk etmir, ona dəyər verə bilmir. Nəticədə çox vaxt istedad sönür və ya itib-batır. Məktəblərdə isə müəllimlər şuluq, intizamı pozan, təlimdə geri qalan şagirdlərin problemləri ilə məşğul olan daha vacib hesab edilir.

İstedadlı uşaq ilk növbədə uşaqdır. Başqa uşaqlar kimi onunda bir şəxsiyyət kimi formalaşması prosesi ontogenetik inkişafın qanunauyğunluğu ilə şərtlənir. Lakin elə ki, bu uşaqlar istedadın yaradıcılıq məkanına qədəm basır, onun şəxsiyyət kimi önəmli xüsusiyyətləri meydana çıxır. Tədqiqatçı-alim Elxan Bəylərovun fikrincə, uşaq yaşında istedad insanın gələcək həyat mərhələlərinə nisbətdə psixi inkişaflarının potensialı kimi nəzərdən keçirilə bilər. Bu halda uşaq istedadının aşağıdakı səciyyəvi xüsusiyyətləri nəzərə alınmalıdır:

1) Uşaq istedadı, adətən özünü uşağın yaş inkişafının qanunauyğunluğu kimi göstərir. Qabiliyyətin inkişafı üçün uşaq yaşının hər bir dövrünün öz imkanları var. Məsələn, məktəbəqədər yaş dövrü dilləri öyrənməyə meyl, təxəyyülün yüksək parlaqlığı, yüksək maraqlılıq səviyyəsi, yuxarı yeniyetməlik dövrü üçün ədəbi yaradıcılığın müxtəlif formaları və s. xasdır. İstedad əlamətlərində yaş amilinin yüksək nisbi çəkisi bəzən istedad görüntüsü (istedad maskası) yaradır. Yəni yaş inkişafı ilə bağlı bəzi psixi funksiyaların sürətli inkişafı, maraqların erkən formalaşması və s. istedad əlaməti kimi görünür.

2) Yaşda, təhsildə, davranış formalarının mənimsənilməsində, təlimdə, tərbiyədə və s.-də baş verən dəyişikliklərin təsiri altında uşaq istedadı əlamətlərinin sönməsi baş verə bilər. Bütün bunların nəticəsində uşağın müəyyən yaş mərhələsində nümayiş etdirdiyi istedad dayanıqlığı barədə fikir yürütmək olduqca çətindir. Bu istedadlı uşağın istedadlı böyüyə çevrilməsi barədə proqnozları çətinləşdirir.

3) Uşaq istedadının formalaşmasının özünəməxsus dinamikası bəzən psixi inkişafın qeyri-sabitliyi kimi təzahür edir. Məsələn, bəzi qabiliyyətlərin yüksək inkişafı fonunda yazılı və şifahi nitqin ləngiməsi müşahidə oluna bilər və ya xüsusi qabiliyyətlərin inkişafı ümumi intellekt səviyyəsinin aşağılığı ilə müşayiət edilə bilər və s. Nəticədə bəzi əlamətlərə görə uşaq istedadlı, digər əlamətlərə görə isə psixi inkişafı ləngiyənlər qrupuna aid edilə bilər.

4) Bəzən uşaq istedadının təzahürünü təlimlənmə amilindən - uşaq üçün yaradılmış əlverişli həyat şəraiti təsirindən fərqləndirmək çətin olur. Yüksək sosial statuslu ailə uşağın təliminə ciddi səy göstərirsə, eyni səviyyəli qabiliyyət halında bu ailənin uşağının az təminatlı ailənin uşağına nisbətən yüksək nəticə göstərməsi təbiidir [4, s. 51-52].

Düşünmək və yaratmaq qabiliyyəti hər bir insanın yaradılarkən aldığı ən qiymətli nemətdir. Bioloq alimlər təsdiq edirlər ki, hər bir uşaq təbiətin təkrarolunmaz yeni eksperimentidir. Xüsusi qabiliyyətin hər bir fərddə özünəməxsus şəkildə təzahür etməsinə baxmayaraq, elə xüsusiyyətlər var ki, onlar bu və ya digər dərəcədə bütün istedadlı uşaqlarda, insanlarda mütləq olur.

Xüsusi qabiliyyətin əsas əlaməti təxəyyül sferasına aiddir. İstedadlı uşaq özünü dərk edənə, öz "Mən"ini tapana qədər onun inkişafı, necə deyərlər, pərvazlanması bilavasitə ətrafdakı adamlardan – valideynlərdən və müəllimlərdən çox asılıdır. Onların bu sahədə psixoloji səriştəsinin artırılması olduqca vacibdir.

İstedadlı uşaqlar hər şeylə yaxından maraqlanırlar. Ətraf aləmi xüsusi fəallıqla araşdırırlar. Səbəb-nəticə əlaqələrinin açıqlanmasına xüsusi fikir verirlər və müəyyən nəticə çıxarırlar. Yaxşı hafizə, inkişaf etmiş nitqi və abstrakt təfəkkür qabiliyyəti ilə seçilirlər. Onlarla danışmağın, söhbət etməyin öz çətinlikləri var. Anası və ya atası istedadlı uşaqla nə barədə isə söhbət edəndə, necə deyərlər, o, nəfəsini dərmədən oturub baxır, ancaq söhbətə qulaq asmır. Ana-

sının və ya atasını sözünü ağzında qoyur, onun nə demək istədiyini dərhal başa düşür, müxtəlif replikalarla söhbətin axarını dəyişir.

İstedadlı uşaqların hafizəsinin də özünəməxsus xüsusiyyətləri vardır. Onlar başlıca məqamları dəqiq yadda saxladıqları halda, digər hadisələri ya asanlıqla unudur, ya da sanki "görmürlər". Hafizənin assosiativliyi istedadlı uşaqlar üçün daha xarakterikdir. Prof. Ə.Əlizadəyə görə, istedadlı uşaqların hafizəsində mühüm bir cəhət də aydın nəzərə çarpır. Onlar informasiyanı təsnifləşdirmək və kateqoriyalaşdırmaq qabiliyyəti ilə seçilirlər. Mənimsədikləri biliklərdən geniş istifadə etmək bacarığı da onlar üçün səciyyəvidir.

İstedadlı uşaqların təxəyyül və təfəkkürü digər həmyaşıdlarından qeyri-adiliyi, gözlənilməz çalarları, obrazlılığı ilə seçilir. Məlum olduğu kimi, təxəyyülün başlıca funksiyası yaradıcılıqla bağlıdır. Elə bu səbəbdən təxəyyül istedadın nüvəsini təşkil edən başlıca cəhətlərdən biridir. Bu cəhətləri nəzərə alan Ə.Ə.Əlizadə istedadlı uşaqların təxəyyülünün digər yaşıdlarından iki başlıca cəhətinin fərqləndiyini qeyd edir.

Mürəkkəb tapşırıqları sevirlər və onları yerinə yetirmək üçün saatlarla fikirləşirlər. Kiminsə onlara kömək etməsini xoşlamırlar. Bir işlə məşğul olanda son dərəcə diqqətli olurlar, yaxşı nəticə əldə etmək arzusu ilə işləməkdən yorulmurlar. Onların bir çoxunda riyazi qabiliyyətlər üstünlük təşkil edəndə, oxucu maraqları bu və ya digər dərəcədə zəifləyir. Nə ilə məşğul olurlarsa müvəffəqiyyət əldə edirlər, hətta bəzən onların işinin nəticəsi qeyri-adi görünür. Bu qeyri-adi nəticələrlə yaşlıları – təkcə müəllimləri və valideynləri deyil, həm də tanınmış sənətçiləri – şairləri, rəssamları, bəstəkarları və s. heyrətləndirirlər. Onlar bu məqamda istedadlı uşağın həmyaşıd uşaqlardan necə də kəskin surətdə fərqləndiyini bütün aydınlığı ilə görürlər və bu uşaqları balaca şair, rəssam, bəstəkar kimi səciyyələndirirlər.

İstedadlı uşaqlar nəinki yaradıcılıq axtarışlarında, həm də adi həyati situasiyalarda önəmli psixoloji xüsusiyyətləri ilə həmyaşıdlarından seçilirlər. Həmyaşıd uşaqlardan fərqli olaraq, hadisələri tez qavrayırlar və yaxşı başa düşürlər. Onlar eyni bir situasiyada hadisələri başqa uşaqlara nisbətən daha yaxşı görürlər, eşidirlər, hiss edirlər. Ətrafdakı adamların intonasiyasına, jestlərinə və pozalarına fikir verirlər. Həddindən artıq həssas olurlar. Onları bir yerdə saxlamaq və əyləndirmək çətindir. İstedadlı uşaqları çox vaxt həmyaşıd uşaqların səviyyəsi təmin etmir, onlar özlərindən böyük uşaqlarla həvəslə ünsiyyətə girir və oynayırlar. Çox vaxt məktəb problemləri onları təmin etmir. Bu problemlər istedadlı uşaqlara çox vaxt darıxdırıcı, cansıxıcı və maraqsız görünür.

Müəyyən edilmişdir ki, istedadlı uşaq özünün nurlu, işıqlı intellekti ilə sadəcə sinfə sığmır. O.Y.Aparinanın sözləri ilə desək, tədris proqramı istedadlı uşaq üçün darıxdırıcı və maraqlı deyil. Bu cür tədris planı isə istedadlı uşaqların qabiliyyətinə müvafiq olmadığı üçün onların davranışında pozğunluq əmələ gəlir [5].

İstedadlı uşaqlar xüsusi maarifləndirici ehtiyaclara malikdir. Bu xüsusiyyətə malik olan uşaqların təhsil ehtiyaclarının ödənilməsi üçün qayğı və qabiliyyətlərini ortaya qoyub inkişaf etdirilməsi, onları motivasiya edən cəld və yaradıcı tədbirlərin təqdim edilməsi vacibdir.

Psixoloji inkişaf sahəsində istedadlı uşaqlar üçün aşağıdakı psixoloji xüsusiyyətlər səciyyəvidir:

1. İstedadlı uşaqlarda çox erkən təzahür edən güclü ədalət hissi olur. Onlar özlərinə və ətrafdakılara yüksək tələbkarlıqla yanaşır, həqiqətə, ədalətə, harmoniya və təbiətə qarşı həssas olurlar.

2. Balaca istedadların canlı, parlaq və zəngin təxəyyülləri mövcud olmayan xəyali qardaşlar, bacılar, dostlar, canlılar, zəngin və rəngarəng fantastik aləmlər yarada bilir. Xeyli zaman keçdikdən sonra belə onların bir qismi işdə, məsələ həllində və həyatda oyun elementlərini,

ixtiraçılıq və yaradıcılıq yanaşmalarını qoruyub saxlayırlar.

3. İstedadlı uşaqlarda, adətən emosional balans qənaətbəxş olmur. Onlar üçün erkən yaşlarında şişirdilmiş qorxu hissləri səciyyəvidir. Buna səbəb onların xəyallarında hadisələrin çoxlu və olduqca qorxulu nəticələrini canlandıra bilmələridir. Onlar həm də yüksək həssaslıq, emosional asılılıq, müvazinətsizlik, hövsələsizlik və çılğınlıq xasdır.

4. Məktəbdə yaradıcılıq indiqatoru olan - tədris kursunun mövzuları var. Onlar sual doğurur, həqiqətə çatmaq arzusu yaradır. Hər hansı bir şeyə yaranan böyük maraq, cilovlanmayanı dərk etmək arzusu, həvəsi xüsusi qabiliyyətlərin təzahürüdür.

5. İstedadlı uşaqlar üçün qabaqlayıcı idraki inkişaf səviyyəsidir. İstedadlı uşaqlar geniş qavrayışa malik olub, onları əhatə edən aləmdə baş verənləri kəskinliklə hiss edirlər. Bu və ya digər əşyanın necə qurulması onları çox maraqlandırır. Onlar bir neçə prosesi eyni zamanda izləyə bilir və onları əhatə edən hər bir şeyi fəal tədqiq etməyə meyl göstərirlər.

6. Onlarda cisim və hadisələr arasındakı əlaqələri başa düşmək və müvafiq nəticələr çıxarmaq qabiliyyəti var. Onlar öz təxəyyüllərində alternativ sistemlər yaratmağı xoşlayır, proseslərdə səbəb-nəticə əlaqələrini həssaslıqla izləmək və uyğun nəticələr çıxarmaq qabiliyyəti yüksək səviyyədə nümayiş etdirirdi. Məlum məsələlərin alternativ həlli yollarının tapılması işi (alternativ modellərin qurulması) onları xüsusilə cəlb edir.

İstedadlı uşaqların fərqli psixoloji cəhətlərindən biri də onların işə yaradıcı münasibət bəsləmələridir. İstedadlı uşaqlar üçün erkən yaşlarda səciyyəvi olan digər psixoloji xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

— onlarda yaşıdlarına nisbətən qabaqlayıcı mənəvi inkişaf, qabaqlayıcı qavrayış və idrak inkişafından qaynaqlanır;

— erkən yaşlarında eqosentrizm yaşıdlarındakı kimi olur;

— bir çox hallarda onlarda neqativ özünüdərk hissi inkişaf edir və yaşıdları ilə münasibətdə gərginlik yaranır.

Beləliklə, müəllim şagirdlərlə iş məqamında onların inkişaf səviyyəsini, xüsusilə də onun keyfiyyətlərinin və qabiliyyətlərinin inkişaf səviyyəsini müəyyən etməlidir.

**Məqalənin aktuallığı.** XXI əsrdə istedad problemi daha da aktuallaşıb. İstedadlıların müəyyənləşdirilməsi, dəstəklənməsi və inkişaf etdirilməsi ciddi elmi problem kimi diqqət mərkəzindədir. Uşaq yaşlarında istedad uşaqların psixi inkişafının potensialı kimi dəyərləndirilməlidir. Psixoloji inkişaf sahəsində istedadlı uşaqların psixoloji xüsusiyyətləri nəzərə alınması aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** İstedadlı uşaqların fərqli psixoloji cəhətlərindən biri onların işə yaradıcı münasibət bəsləmələridir. İstedadlı uşaqlar üçün erkən yaşlarda səciyyəvi olan psixoloji xüsusiyyətlərin qruplaşdırması təlim və tərbiyə sahəsində müsbət nəticələr verir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər. Bakı: ADPU, 2005, 352 s.

2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 2004, 432 s.

3. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Çinar-çap nəşr. poliqrafiya mətbəəsi. Bakı, 2009, 620 s.

4. Bəylərov E.B. İstedadlı uşaqların təliminin məzmununa dair // "Psixologiya jurnalı",

2009, №1, s. 36-46
5. Апарина О.Ю. Комплексная программа выявления творческих и интеллектуалных способностей детей // Доп.образование и воспитание. 2012, № 7, с. 11-20.

**З.Н. Гусейнова**

## Особенности психического развития одаренных детей

## Резюме

В научной статье автор исследовал категории одаренных детей, каждая из которых классифицирует определенное отношение как психическое событие в таланте и предпочтение этих категорий в учебной практике. В статье описаны характерные особенности психического развития одаренных детей, а также описаны психологические особенности одаренных детей в области психологического развития.

**Z.N. Huseynova**

## Features of mental development of gifted children

## Summary

In the scientific article, the author investigated the categories of gifted children, each of which categorizes a certain attitude as a psychic event in talent, and the preference for these categories in educational practice. The article describes the characteristic features of the mental development of gifted children. In addition, the psychological characteristics of gifted children in the field of psychological development are described.

**Redaksiyaya daxil olub:** 14.10.2019